**Moldova Respublikası "Əqli Mülkiyyət üzrə Dövlət Agentliyi" və**

**Azərbaycan Respublikası "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxs**

**arasında**

## ƏMƏKDAŞLIQ MEMORANDUMU

Fəaliyyətdə olan Nizamnaməyə uyğun olaraq, bir tərəfdən Moldova Respublikası "Əqli Mülkiyyət üzrə Dövlət Agentliyi"nin baş direktoru Lilia Bolocan, digər tərəfdən Azərbaycan Respublikası "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsin baş direktoru v.i.e. qismində Sevdimalıyeva Günel Arif qızı, (bundan sonra "Tərəflər"),

Moldova Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin qorunması sahəsində əməkdaşlıq haqqında 23 aprel 2008-ci il tarixli Sazişin müddəalarını rəhbər tutaraq,

İkitərəfli əməkdaşlığın üstünlükləri və tərəflərin hər birinin mövcud münasibətləri inkişaf etdirmək arzusu ilə,

Hər iki ölkənin iqtisadi və sosial inkişafı üçün əqli mülkiyyətin (ƏM) vacibliyini qeyd edərək,

Əqli mülkiyyət sahəsində əməkdaşlığı genişləndirmək və təcrübə mübadiləsini, ƏM prosedurları və xidmətləri daxil olmaqla, ƏM sisteminin fəaliyyətini gücləndirərək, dostluq əlaqələrini inkişaf etdirmək niyyətini,

NƏZƏRƏ ALARAQ

aşağıdakı Memorandumu (bundan sonra "Memorandum") bağladılar.

**Maddə 1**

Tərəflər iki ölkənin qüvvədə olan qanunvericiliyi və bu Memorandumun müddəalarına uyğun olaraq, bərabər və qarşılıqlı ümumi maraq doğuran sahələrdə əqli mülkiyyət sahəsində əməkdaşlığın inkişafına töhfə verəcəklər.

**Maddə 2**

Tərəflər arasında əməkdaşlıq aşağıdakı əsas sahələr üzrə aparılacaqdır:
a) cari fəaliyyətlərindəki ən yaxşı təcrübə mübadiləsi;

b) xüsusiləşdirilmiş əqli mülkiyyət xidmətlərinin müştərilərə çatdırılmasında bilik və təcrübə mübadiləsi;

c) sənaye mülkiyyəti və onun gələcək inkişafı ilə bağlı qanunvericilik üzrə məlumat mübadiləsi;

d) əqli mülkiyyət üzrə maarifləndirmə tədbirlərində bilik və təcrübə mübadiləsi;

e) birgə konfranslar, simpoziumlar, seminarlar və sənaye mülkiyyətinə aid digər tədris tədbirlərini təşkil etmək imkanlarının araşdırılması;

f) coğrafi göstəricilərin mühafizəsi sisteminin təşviqi və dəstəklənməsi və coğrafi göstəricilərin mühafizəsi sahəsində biliklərin artırılması;

g) iki ölkənin elmi-tədqiqat qurumları, müəssisələri və digər əqli mülkiyyət sahibləri arasında əqli mülkiyyət hüquqlarının təşviqi.

Əməkdaşlıq fəaliyyətləri hər iki tərəfin razılığı ilə hazırlanmış Əməkdaşlıq proqramında daha ətraflı göstərilə bilər.

**Maddə 3**

Tərəflər qarşılıqlı razılıq əsasında bu Memorandum çərçivəsində əməkdaşlığın növləri kimi davam etdiriləcək proqram və layihələrin maliyyələşdirilməsi və həyata keçirilməsi üçün üçüncü tərəflərin iştirak etməsini xahiş edə bilər.

Tərəflər hər iki ölkənin elmi-tədqiqat qurumları, müəssisələri və digər əqli mülkiyyət sahiblərinin əqli mülkiyyətə dair ikitərəfli və çoxtərəfli layihə və proqramlarında iştirakını dəstəkləyəcəklər.

**Maddə 4**

Bu Memorandumunun müddəaları heç bir halda Tərəflərin mövcud və ya gələcəkdə imzalayacaqları ikitərəfli və çoxtərəfli müqavilələrindən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

**Maddə 5**

Tərəflər Memorandumla bağlı əlaqələndirici şəxsləri təyin edir: Azərbaycan Respublikası "Patent və Əmtəə Nişanları Mərkəzi" adından Nigar Osuji, e-mail: n.osuji@patent.gov.az; tel: +99412 594 37 70/71 dax. 104 və Moldova Respublikası "Əqli Mülkiyyət üzrə Dövlət Agentliyi" adından Tatiana İuncu, e-mail: tanya.iuncu@agepi.gov.md; tel: +37322400582.

**Maddə 6**

Bütün yazışmalar İngilis dilində aparılacaq.

**Maddə 7**

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və beş (5) il müddətinə qüvvədə qalır. Tərəflərdən hər hansı biri Sazişin fəaliyyət müddətinin bitməsinə altı (6) ay qalmış digər Tərəfə yazılı bildiriş verməzsə, o, avtomatik olaraq növbəti eyni müddət üçün uzadılmış hesab olunur.

**Maddə 8**

Bu Əməkdaşlıq Memorandumuna hər iki Tərəfin razılığı ilə əlavələr oluna bilər. Hər hansı bir dəyişikliklər yazılı formada olmalı və bu dəyişikliklərin qüvvəyə minmə tarixləri qeyd olunmalıdır.

Sözügedən Memorandumun müddəalarının təfsiri və qəbulu ilə əlaqədar fikir ayrılıqları yarandığı təqdirdə, tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Tərəflər başqa cür razılaşmadıqda, Memorandumun erkən dayandırması, davam edən layihələrin və ya fəaliyyətlərin həyata keçirilməsinə mane olmur.

Bu Memorandum Tərəflər üçün məcburi hüquqi öhdəliklər yaratmır və beynəlxalq hüquqla tənzimlənmir.

**Maddə 9**

Bu Memorandum hər biri iki əsl nüsxələrdə - hərəsi, Azərbaycan, Rumın və İngilis dillərində tərtib olunmuşdur və İngilis dilindəki orijinal nüsxələrə üstünlük verilir.

Kişinyov şəhərində, 6 Sentyabr 2017-ci il tarixində imzalanıb.

| **Moldova Respublikası "Əqli Mülkiyyət üzrə Dövlət Agentliyi"** | **Azərbaycan Respublikası “Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxs** |
|---|---|
| Lilia Bolocan<br>Baş direktor | Günel Sevdimalıyeva<br>Baş direktor v.i.e. |